Tək ədədlər nəyə deyilir?

2-yə tam bölünməyən natural ədədlərə tək ədəd deyirik.

1, 3, 5, 7 və 9 tək natural ədədlərdir.

Eyni zamanda 1, 3, 5, 7 və 9 ilə bitən bütün natural ədədlər tək ədədlərdir.

Məsələn: 42347 ədədinin son rəqəmi 7 olduğu üçün 42347 ədədi tək ədəddir.

Tək ədədlər sonsuzdur.

Cüt ədədlər nəyə deyilir?

2-yə qalıqsız bölünən natural ədədlərə cüt ədədlər deyirik.

2, 4, 6 və 8 cüt natural ədədlərdir.

Eyni zamanda 0, 2, 4, 6 və 8 ilə bitən bütün natural ədədlər cüt ədədlərdir. (Məsələn 96785970 ədədinin son rəqəmi 0 olduğu üçün 96785970 ədədi cüt ədəddir.)

0 cüt ədəd deyil ancaq 0 ilə bitən bütün ədədlər cüt ədəddir.

Cüt ədədlər sonsuzdur.

İki tək ədədin cəmi cüt ədədirmi?

İki tək ədəd götürək.

1 və 3

Bunları toplayaq.

1+3=4. Cüt ədəd əldə etdik.

Demək ki, iki tək ədədin cəmi cüt ədəddir.

Qüvvət nədir?

Bir ədədin qüvvəti, həmin ədədin özünə təkrarlanaraq vurulmasıdır.

Məsələn

$5^2 = 5 \cdot 5 = 25$

$2^3 = 2 \cdot 2 \cdot 2 = 8$

Yuxarıdakı nümunələrdən tək ədədin qüvvətinin tək olduğunu görürük.

Eləcə də, cüt ədədin qüvvəti də cüt ədəddir.

Məsələn, x^{54} ədədi tək ədəddirsə x də tək ədəddir deyirik və ya x^{13} ədədi cüt ədəddirsə x də cüt ədəddir deyirik.

"n-nin bütün natural qiymətlərində" nə deməkdir?

"n-in bütün natural qiymətlərində" ifadəsi o deməkdir ki, n tək də ola bilər, cüt də ola bilər. Hər iki halda verilən şərt ödənməlidir.

QEYD: riyazidunyam.com veb səhifəsində bu mövzuya aid testləri edin ki, elminiz qüvvətlənsin. ✓